

VAQİF YUSİFLİ

# ŞƏRƏFLİ YAZIÇI ÖMRÜ

**Tanınmış nasir, dramaturq Əfqan Əsgərovun 90 yaşı tamam olur. Əfqan Əsgərov İyirminci illərdə doğulan və bu günə qədər yaşayıb-yaradan üç yazıçıdan biridir. (Vidadi Babanlı və Əli İldırımoğlu ilə birgə). XX əsrin təzadlı, mürəkkəb, həm də son dərəcə dramatik hadisə və olayları ilə nəfəs alan bu yazıçılara daha uzun ömür arzulayaq.**

Əfqan müəllim bu dünyaya göz açdığı Qarabağlı kəndində orta məktəb bitirib, sonra BDU-nun filologiya fakültəsində təhsil alıb.1953-cü ildən ”Azərbaycan gəncləri”, ”Kommunist”, ”Həyat” qəzetlərində çalışıb, elə əlli il ”Kommunist” qəzetində ədəbiyyat və incəsənət şöbəsinin müdiri, ”Sovet kəndi” (sonralar ”Həyat” adlandı) qəzetində baş redaktor olub. Və əllinci illərdə də bədii yaradıcılığa başlayıb, əllinci-altmışıncı illərdə bir hekayəçi kimi tanınıb, pyeslər qələmə alıb, yetmiş-səksəninci illərdə isə ədəbi aləmdə səs-səda doğuran romanları ilə diqqəti cəlb edib.

Əksər yazıçılar yaradıcılığa hekayə ilə başlayırlar və Əfqan müəllim də bu ənənəyə sadiq qalıb. Hekayə janrı hər bir yazıçı üçün nəsrin digər janrlarına keçmək üçün bir təcrübə məktəbidir, altmışıncı illərdə Əfqanın ”Gecikmisən”, ”Gözəllik sorağında”, ”Sən tək deyilsən”, ”Sarı əlcək” hekayələr kitabı çapdan çıxıb. Onun hekayələri ilk növbədə mövzu rəngarəncliyi ilə seçilirdi, Əfqan Böyük Vətən müharibəsinin ağrı-acılarından, Azərbaycan oğullarının igidlik və şücaətindən də yazırdı, ailə-məişət münasibətlərindən də.

Həyatın neqativ, mənfi hallarından da yazırdı, bu həyatın yaradıcı, qurucu gənclərindən də. Əgər Əfqanın ilk dövr yaradıcılığının səciyyəsini vermiş olsaq, deyə bilərik ki, onun hekayələrində müxtəlif məsələlər əks olunsa da, bir əsas problem aparıcı idi. Gözəllik.

Əfqan insan münasibətlərində də ictimai həyatda da, sevgidə də gözəllik axtarırdı. Və bu gözəlliyi insanın mənəvi gözəlliyi kimi tərənnüm edirdi.

Əgər həyatda, insan münasibətlərində bir müşgüllük, çatışmazlıq varsa, deməli, gözəlliyə qəsd olunur.Və bu ideyanı Əfqan daha sonralar, səksəninci illərdə qələmə aldığı ”Dünya gözəlliyindir” povestində mükəmməl şəkildə ifadə elədi. Povestin qəhrəmanı Azər var-dövlət, şan-şöhrət həvəsinə düşmüş, əslində, mənəviyyatsızlıq girdabına düsar olan, ”həyatda nə bacarırsansa, ona yiyələn” fikri ilə yaşayan yaşıdlarının əhatəsinə düşür, amma həmişə öz saflığını göz bəbəyi kimi qoruyur. ”Dünya gözəlliyindir” -bu onun dilində tez-tez səslənir. Nəticədə, onun təsirilə Ofa adlı qız restoranlardan ayrılır, Sumqayıtda fəhləlik həyatına qədəm qoyur. Hekayələrində təsvir etdiyi adi insanları da Əfqan məhz gözəllik prizmasından təsvir edirdi. Məsələn, ”Gülxanım nənə” hekayəsi bu baxımdan səciyyəvi idi. Əfqanın hekayələrində əxlaqi məsələlərdə də mühüm yer tuturdu, ”Daldan atılan daş”, ”Bağışla” və s. hekayələrində oxuculara bu fikir aşılanırdı ki, milli əxlaqi dəyərlər qorunmalı, yaşanmalıdır.

Əfqan Əsgərovu bir mənada ”müharibə uşağı” da adlandırmaq olar. Yəni onun uşaqlıq illəri, həm də ilk gənclik illəri 1941-1945-ci illərə düşür. Bir neçə hekayəsində o, bu müharibənin ağrı-acılarından söz açmışdı, amma ilk romanında -”Qartal əfsanəsi”ndə müharibə mövzusu epik səviyyədə öz bədii həllini tapır.Əfqan görmədiyi, bilavasitə iştirak etmədiyi müharibəni təsvir edirdi, o dövrün müharibə romanlarına xas olan bir çox xüsusiyyətlər bu romanda da öz əksini tapmışdı. Əsərin qəhrəmanı İsmayılı müəllif müharibənin ən ağır sınaqlarından keçirir, azərbaycanlı döyüşçülərin igidliyini, ”qartallığını” təsvir edir.

Əfqana bir yazıçı kimi şöhrət qazandıran romanlar isə yetmiş-səksəninci illərdə qələmə alındı. Əgər ”Qartal əfsanəsm”ndə Əfqan görmədiyi, iştirak eləmədiyi müharibədən yazmışsa (bunu ona irad kimi qəbul eləmək olmaz, çünki yazıçı necə deyərlər ”müharibə, döyüş texnologiyasını yaxşı öyrənmişdi) , ”Gülyanaq”, ”Katib”, ”Halal çörək” romanlarında gördüyü, müşahidə etdiyi hadisələri qələmə almışdı. Yetmiş-səksəninci illəri bəzən Azərbaycanın ”sakit” dövrü kimi səciyyələndirirlər, amma bu ”sakitlikdə” necə fırtınalar qopduğunun şahidi olmuşuq. Bu romanlarda Əfqan Pəhbər və Xalq probleitnini təsvir etdiyi bütün hadisələrin mərkəzinə gətirir.

Xalq və Şəxsiyyət (Rəhbər) ayrı-ayrılıqda düşünülə bilməz, Şəxsiyyət-Rəhbər Xalqın nümayəndəsidir və onun iradəsini təmsil edir. Vəzifəli şəxs kütləni, camaatı ”öz prinsiplərinə” deyil, özünü-istedad və bacarığını onların istəklərinə tabe etməlidir. Xalqın rəyi ilə hesablaşmayan hər hansı rəhbər şəxs-vəzifəli adam gec-tez mənəvi süquta uğramalıdır. Bu problem Əfqanın trilogiya şəklində qələmə aldığı ”Gülyanaq” ”Katib”, ”Halal çörək” romanlarının da ideya-bədii istiqamətini təşkil edir. Müəllif İsrafil İsrafilzadə və Sabutay Canəliyev obrazları vasitəsilə sanki belə bir suala cavab verir: xalqı öz arxasınca



kim apara bilər? Özünü ondan ayıran, praktiki şəkildə təcrid edib bununla da mənəvi uçuruma yuvarlanan katib, yoxsa xalq iradəsinin təmsilçisi olan katib? İsrafilzadə o dövr nəsrinin ”müsbət qəhrəman” silsiləsinə tam uyğun gələn, ən çətin anlarda da Dədə Bəhmən kimi el ağsaqqallarına üz tutan, dövlət planlarından daha çox insan aimlinə diqqət yetirən rəhbər idi.

Canəliyevin ”iş üslubunda” isə əsas üsul tabeliyində olanları qorxu və itaət altında saxlamaqdı. Yaponların dibçək bitkiçiliyində möcüzələr yaratdığı, palıd ağacını cırtdanlaşdırıb dibçəkdə əkmələri, Amerika alimlərinin cırtdan atlar yetişdirdiyi Sabutaya yaxşı məlum idi.

O, adamlara da belə yanaşırdı: palıd vüqarlı birisini qorxağa, yalançıya döndərməyə cəhd edir, niyyəti baş tutmayanda ”səni rayondan qovaram”, ”partiya böiletini alaram” deyə açıq hədə-qorzuya, şantaja keçirdi. Məsələn, ”Şəfəq” kolxozunun zootexniki Arığovu inəyi pambığa girdiyi üçün partiyadan çıxartdırır, saçı-smaqqalı ağarmış bir qocanı uzunqulağa ot yüklədiyi üçün palçığa itələyir və s. Və bu rayonda tək deyil, havadarları hər sözünə ”bəli”, ”baş üstə” deyənlər çoxdur.

Əlbəttə, bu mənzərə bizə tanışdır.

Bir çox rayonlarda ”kiçik padşahların” iş üsulu bizə yaxşı məlum idi.

Rus ədəbiyyatşünası Timofeyev yazır ki: ”Roman elə bir əsərdir ki, o, inkişafda olan mürəkkəb həyat prosesini təsvir edir. Romanda insan həyatının lövhələri bütün mürəkkəbliyi və çoxcəhətliliyi ilə verilir. İnsanın həyat yolu, onun xarakteri romanda insan həyatının müxtəlif dövründə, müxtəlif formalarda işvqlandıpılır”. Əfqanın trilogiyasında çoxlu insan taleləri işıqlandırılsa da, daha çoz iki obrazın-Dədə Bəhmənin və Gülyanağın obrazları diqqət mərkəzindədir. Deyərdik ki, Dədə Bəhmən obrazı ilə Əfqan ədəbiyyata Vətənin taleyini öz şəxsi taleyində əks etdirən qocaman bir nəislin ədəbiyyatda mükəmməl obrazını yaratmışdır. Bu nəsil ən çətin inqilablı, mübarizəli və müharibəli keçmişimizin nümayəndələri idi. Və Dədə Bəhmən də onlardan biri. Görkəmli tənqidçi Yaşayev ”Dədə Bəhmənin gücü və gücsüzlüyü” məqaləsində yazırdı ki: ”Bəhmən adı qarşısındakı ”Dədə” sözünün xüsusi mənası vardır. İyirminci illərin bu savadsız kənd adamının kommunistliyinin simasında yeni dövrün mənəvi norma və prinsipləri ilə ağsaçlı, ağsaqqal ”yazılmamış qanunlar, uzaq əsrlərdən gələn və həmişə müqəddəs tutulan əxlaq və ənənələri arasında ümumiliyin qovşağı və qaynağı tapıla bilir.Məhz buna görə də sırf ictimai, partiyalı, siyasi kadr keyfiyyətləri Dədə Bəhməndə həm də fərdi mənəvi-əxlaqi keyfiyyətlər şəklində milliləşir. Dədə Bəhmən deyir ki: ”kommunistlik elə ən böyük kişilikdir”.

Lakin elə bir dövr gəlir ki, torpağın dilini bilən, xalqla onun öz dilində danışan bu ”el atası” özü də həmin dövrün ”əyri yolla qəhrəmanlıq” təbliğatına uyur və ”artıq sahə” əkdirir ki, onun tərifi daha da artsın.

Amma sədrlikdən çıxsa da, Dədə Bəhmən yenə xalqdan uzaqlaşmır. Əsərlərdə Gülyanaq obrazı yeni nəslin təcəssümü kimi diqqəti cəlb edir. Oxumuş, savadlı bir qızla Dədə Bəhmən arasında mənəvi tellər heç vaxt qırılmır, lakin dövrə, yeni ictimai münasibətlərə Gülyanağın fərqli yanaşması ditqqətdən yayınmır. O, Dədə Bəhmənə, bu ailəyə sadiqdir, lakin köhnə iş üsullarına qarşı çıxır və Dədə Bəhmənlə fikir ixtilatı da burdan yaranır.

Ümumiyyətlə, Əfqanın bu üç romanı yetmiş-səksəninci illər Azərbaycan kəndində gedən prosesləri həqətə uyğun əks etdirir, o illərin ictimai, mənəmi-əxlaqi tarixini öyrənmək üçün bu əsərlərə müraciət etmək lazımdır.

”Gülyanaq” romanı çapdan çıxan kimi onu dəyərli bir əsər kimi qiymətləndirdilər və sırada Xalq şairi Rəsul Rzanı xüsusi qeyd etməliyik. Rəsul müəllim yazırdı: ”Hörmətli Əfqan. ”Gülyanaq”ı maraqla oxudum. Yaxşı əsərdir. Mən öz-özlüyümdə romanı ”həyatdan səhifələr” adlandırardım. Bu, doğrudan da, belədir. Əsəri oxuduqca ömrümüzün fərəhli, nisgilli səhifələri gözlərimiz qarşısında canlanır. Bu, bəzəksiz-düzəksiz, bəzən acı, göynəkli, bəzən qürurlu həyat lövhəsidir-bu günlü (müasir) həyat lövhəsi.Vaxtilə kənd təsərrüfatı sahəsində bir-birini əvəz edən eksperimentlərin necə ziyanlar vurduğunu bədii boyalarla göstərmisən. ..Əsərdə yaradılmış bir sıra obraz həyat həqiqəti ilə oxucunu inandırır, düşündürür, onda ötkəm duyğular oyadır Mənə elə gəlir ki, son illərin nəsr əsərləri içində həyat həqiqəti, vətəndaşlıq cəsarəti, bədii səviyyəsi ilə ”Gülyanaq” romanı xüsusi yer iutur”.Təbii ki, Yaşar Qarayevin ”Dədə Bəhmənin gücü və gücsüzlüyü” məqaləsi də Əfqanın yaradıcılıq üslubunu daha yaxşı səciyyələndirir,, əsəri tənqidin gözü ilə oxumaq mənasında bu məqalə 41 il əvvəl yazılsa da, indi də maraq dairəsindədir.

Əfqan müəllim həm də bir sıra pyeslərin də müəllifidir. ”Dağ seli”, ”Sarı əcək”, ”Qız atası”, ”Gülməyən adam” pyesləri müxtəlif teatrların səhnəsində tamaşaya qoyulu. Xüsusilə, ”Qız atası” Əfqanın bir dramaturq kimi şöhrətləndirdi.

**Biz Əfqan müəllimə bu doxsan yaşında daha uzun ömür arzulayırıq, onun yazıçı ömrü doğrudan da şərəflidir və bu şərəfli ömrün yeni səhifələrinin yazılacağına da inanırıq.**